Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Əbədiyaşar rəhbərimiz Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü müasir müstəqil dövlətçilik tariximizin ən parlaq səhifəsidir



**Bəşər tarixinə diplomatik, uzaqgörənlik, müdriklik, vətənpərvərlik, milli-mənəvi dəyərləri dərindən mənimsəyərək qoruyub saxlamaq təfəkkürü, milliliyi, millətsevərliyi baxımından digər siyasi liderlərdən daha çox fərqlənərək milli lider, qurtuluş dahisi, xilaskar olaraq daxil olmuş Heydər Əliyevin həyatının Naxçıvan dövrünün 1990-93-cü illəri müstəqil dövlətçilik tariximizin ən parlaq səhifəsi olmaqla ulu öndərin şah əsəri olan Azərbaycan dövlətinin müstəqilliyinin əldə olunmasında, qorunub saxlanmasında, möhkəmləndirilməsində əsas rol oynamışdır.**

Ulu öndərimizin həyatının mühüm mərhələlərindən olan Naxçıvandan başlanan fəaliyyəti həmişə uğurlu olmuş və xalqımızı, dövlətimizi, işıqlı, nurlu sabahlara gətirib çıxarmışdır. Bu bənzəri olmayan dahi, əbədiyaşar, milli liderin həyat və fəaliyyətinin bütün mərhələlərində əsas ana xətti dövlətçiliyə, xalqa, millətə xidmətdə dayanıb. Yəni, Heydər Əliyevin çox gənc yaşlarından fəaliyyətə başladığı Naxçıvan DTK-sı, yəni 1940-cı illərdən başlanan fəaliyyəti 1940-50-ci illərədək olan mərhələsinin yüksələn xətt boyunca irəliyə doğru getməsi, 1950-ci illərdə Leninqradda DTK-nın məktəbini bitirərək Azərbaycan SSRİ DTK-nın sədri vəzifəsinədək yüksəlməsi, general rütbəsi alması, onun Azərbaycanın rəhbəri vəzifəsinə yüksələn yolunun əsaslarını qoymuşdir. Müasir Azərbaycanı iqtisadi-sosial, mədəni-mənəvi, hərbi-diplomatik inkişafının və dünyada tanınmasının və ən nəhayət 1982-87-ci illərdə SSRİ rəhbərliyində çalışmasına, işləməsinə dünyada Azərbaycanı bir azərbaycanlı olaraq Sovet nümayəndə heyətinə rəhbərlik edərək 30-dək ölkəyə səfərləri zamanı tanınmasına gedən yolun təməlini qoymuşdur.

Naxçıvandan başlanan yol Azərbaycan xalqının dünya azərbaycanlılarının bu günkü işıqlı yolunun təməlinin əsaslarını təşkil edir. Bu baxımda Heydər Əliyevin Naxçıvandan növbəti dəfə fəaliyyətə başladığı 1990-1993-cü il dövrünün də həmin illərə qədər böyük tarixi rolu və əhəmiyyəti olmuşdur.

**1940-cı illərdən başlanan Naxçıvan fəaliyyəti Heydər Əliyevi yetkin siyasi lider, dövlət xadimi olaraq yetişdirib DTK sədri, general rütbəsinə, Azərbaycanın rəhbərinə və nəhayət SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən birinə gətirib çıxardırsa, 1990-cı illərdən 1993-cü ilədək onun dövründəki Naxçıvan fəaliyyəti yolu Heydər Əliyevi həmin illərin davamı olaraq milli liderə, qurtuluş dahisinə, xilaskara çevirərək müstəqil, dünyəvi Azərbaycan dövlətinin - Azərbaycan adlı şah əsərinin qurucusu, müəllifi yoluna daha da yaxınlaşdırdı.**

Tarixi faktlar sübut edir ki, Heydər Əliyevin fəaliyyətinin Naxçıvandan başlanan yolu müstəqil dövlətçilik tariximizdə əvəzsiz yeri və mövqeyi olan tarixi yoldur. Naxçıvandan başlanan yol Azərbaycanın müstəqil dövlətçilik tarixinə qızıl hərflərlə daxil olub. 1990-cı ilin iyul ayında yenidən Naxçıvana gələn Heydər Əliyev həmin ilin payızında parlamentdə keçirilən seçkilərdə hər iki parlamentin deputatı seçilib.

1990-cı ilin payızında Azərbaycan SSR-nin Ali Sovetinə və Naxçıvan Muxtar SSRİ-nin Ali Sovetinə deputat seçildikdən sonra Naxçıvan Ali Sovetinin ilk iclasında müasir müstəqil dövlətçilik tariximiz üçün, tərəqqipərvir bəşəriyyət üçün çox əhəmiyyət kəsb edən, xalqımızın müstəqillik, demokratiya.ş hüquqi dövlət quruculuğu yoluna işıq saçan, bu yolu yaxınlaşdıran siyasi analitik təhlilli çıxışında sovet ittifaqının Qorbaçov başda olmaqla kommunist rejiminin Azərbaycana qarşı mövqeyini kəskin tənqid edərək bu totalitar, mürtəce, ermənipərəst rejimin tarixin səhnəsindən silinəcəyini, kommunist partiyasının dağılması prosesinin getməsini əsaslı siyasi faktların dili ilə qeyd edərək Azərbaycan Sovet Sosialist Respublikasının, Naxçıvan Muxtar SSR-nin ittifaq dövlətinin tərkibindən çıxaraq müstəqil dövlətə çevrilməsi üçün həlli vacib məsələlərigündəmə gətirmişdir. Bu məqsədlə də Muxtar Respublikanın Ali Sovetinin 1990-cı il 17 noyabr tarixli ilk sesiyasında deputat olaraq bir sıra təkliflərini irəli sürərək Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından Sovet Sosialist sözlərinin çıxarılmasını, Ali Sovetin Milli Məclis adlandırılmasını partiyanın fəaliyyətinin dayandırılmasını, Muxtar Respublika olaraq Sovet İttifaqının tərkibindən Naxçıvanın çıxması haqqında qərar qəbul edilməsini, Sovet İttifaqının dövlət atributlarının respublika ərazisindən götürülməsini, 1918-1920-ci illərdə şərqdə ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq Cümhuriyyətin üçrəngli bayrağının, gerbinin, himninin qəbul edilməsini sovet silahlı qüvvələrinin yerləşdiyi hərbi hissələrin, birləşmələrin çıxarılaraq əmlakının, hərbi texnikasının respublikanın mülkiyyətinə verilməsini, sovet dövlət aparatının bütün strukturlarının ləğv edilərək demokratik dövlətin əsaslarının qurulmasını, ordu quruculuğunun təmin edilməsini, 31 dekabr dünya azərbaycanlılarının həmrəyliyi günü elan edilməsini, SSRİ-nin saxlanmasına dair referenduma qarşı kəskin mövqeyini bildirərək, referendumun rədd edilməsini irəli sürərək Naxçıvandan müstəqilliyimizin əsaslarını qoyub. Naxçıvanın rəsməm ittifaq dövlətinin tərkibindən çıxmasına nail olub. Qeyd etdiyim kimi bu proses, yəni Naxçıvanın müstəqilliyini elan etməsindən bir il sonra 25 dekabr 1991-ci ildə SSRİ-nin rəsmən dağılması, bayrağının isə Kremldən endirilərək Rusiya Federasiyasının Kreml üzərində dalğalandırıldığı rəsmən elan edilmişdir. 18 oktyabr 1991-ci il tarixdə isə Azərbaycanın Ali Soveti müstəqillik haqqında konstitusiya aktı qəbul etmişdir. Buradan belə nəticə çıxarmaq olur ki, əsl siyasi müstəqilliyimizə Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində 1990-cı il 17 noyabrında Naxçıvanda üç rəngli bayrağımızın Milli Məclisin iclas salonuna gətirilməsi ilə nail olmuşuq. Yəni Azərbaycana və onun xalqına müstəqilliyi əbədiyaşar müdrik rəhbərimiz Heydər Əliyev bəxş edib. Müstəqilliyimizi təmin etmək üçün 1990-cı ilin noyabrın 17-də Naxçıvan MR-ın parlamentinin ilk sessiyasında ilk dəfə Azərbaycanın üçrəngli bayrağı Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin dövlət bayrağı kimi qəbul edilib. SSRİ hökumətindən, SOV.İKP-dən çıxmalar, partiyanın bütövlükdə buraxılması, fəaliyyətinə xitam verilməsi baş verdi. Naxçıvan MSSR-in adından Sovet Sosialist sözləri çıxarılaraq, Ali Məclis adlandırıldı. Nəzarət Komitəsi ilk olaraq ləğv edildi. Elə həmin günlərdə Azərbaycanın siyasi cəhətdən müstəqilliyinin əsasları qoyuldu. Yəni Azərbaycan siyasi cəhətdən müstəqilliyinə ilk olaraq Naxçıvanda qovuşmağa başladı. Keçmiş SSRİ və Azərbaycanın o vaxtkı rəhbərliyi Heydər Əliyevin Naxçıvandakı fəaliyyətinə mane olmaq üçün müxtəlif təxribatlara əl atırdılar. Öz xalqının ərazisinin bir hissəsi olan qədim Naxçıvan qəsdən, bilərəkdən, planlı şəkildə xalqı Heydər Əliyevin xalq ilə onun vəhdətinin üzərinə qaldırmaq, onu nüfuzdan salmaq məqsədi ilə Mütəllibov və sonradan AXC-Müsavat iqtidarı öz xalqına süşmən kəsilərək naxçıvanlılara hər cüu yardım göstərmək əvəzinə Muxtar Respublikanı blokada vəziyyətində saxlayırdılar. Naxçıvana yanacaq, ərzaq, müdafiə vasitələri verilmirdi.

**Ancaq bütün bunlara baxmayaraq Heydər Əliyev diplomatiyası, siyasəti Naxçıvanı işğaldan, naxçıvanlıları isə aclıqdan, soyuqdan xilas etdi. 1991-ci ilin tarixi əvəzsiz, əlamətdar 3 sentyabr günü Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçildi. O, xalqla birlikdə çətinliklərə sinə gərərək enerjisiz, işıqsız, televiziyasız çətinliklərə dözmüşdür. Heydər Əliyev Türkiyə, İran və digər ölkələrlə əlaqə qurub xalqı fəlakətdən xilas etdi. Türkiyə və Naxçıvan arasında körpü salınmış və 1991-ci ilin oktyabrın 29-da istifadəyə verilmişdir.**

Heydər Əliyev diplomatiyası, siyasəti Naxçıvanı erməni işğalından, daxili çəkişmələrdən, AXC-Müsavatın 1992-ci ilin avqustun 21-də Naxçıvana göndərdiyi İsgəndər Həmidov, Rəhim Qazıyev və digər şəxslərin dövlət çevrilişi hazırlayaraq həyata keçirməsinin qarşısını aldı. 1992-ciilin 24 oktyabrında çevrilişə cəhd xalqın Heydər Əliyevə dəstək verməsi "Heydər-xalq, xalq-Heydər" fəlsəfəsi AXC-nin planlarını alt-üst etdi. Qeyd edək ki, həmin gün Azərbaycanda dövlət çevrilişinə cəhd günü olaraq əsl tarixi gün kimi qeyd olunmalıdır. Dövlət çevrilişinə cəhd isə ondan sonra baş verdi.

Naxçıvan dövrü müstəqil Azərbaycanı irəliyə doğru aparan Yeni Azərbaycan Partiyasını yaratmışdı. Azərbaycanın bu gününün, gələcəyinin əsaslarını qoymuşdur və ən nəhayət Heydər Əliyev siyasi kursunu, siyasətini xalqımıza, dünya azərbaycanlılarına bəxş etmişdir. Heydər Əliyev şəxsiyyəti, siyasəti daha da geniş miqyasda tanınmağa, dəstəklənməyə, müdafiə olunmağa başladı. Ulu öndərin həyatının Naxçıvan dövrüAzərbaycanın müstəqil dövlətçilik tarixinin elə bir mərhələsinə təsadüf edir ki, bu mərhələdə Azərbaycan adlı dövlət dünya xəritəsindən silinmə, parçalanma, ayrı-ayrı işğal zonalarına bölünmə vətəndaş qarşıdurması təhlükəsi ilə üzbə-üz dayanmışdı.

**Belə bir şəraitdə Azərbaycan xalqı ilə onun ziyalıları Naxçıvana üz tutaraq Heydər Əliyevə müraciət etdilər. Ulu öndər hələ sovet Azərbaycanının rəhbəri olarkən 1970-1982-ci il və 1982-1987-ci illərdən qurub yaratdığı indiki müstəqil dövlətimizin iqtisadi-sosial bazasının bir sıra siyasi avantüristlər, dələduzlar, anlaqsız, riyakar AXC-Müsavat iqtidarının rəhbərləri tərəfindən planlı şəkildə dağıdılması və talan edilməsi ilə heç cür barışa bilməzdi. Öz xalqının səsinə səs verdi, xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışına razılıq verdi.**

Ulu öndərin Naxçıvandakı fəaliyyətini Azərbaycan xalqı və ziyalıları çox yüksək qiymətləndirirdilər. Eyni zamanda Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi düvrə dünya ölkələrinin xalqları, rəhbərləri çox yüksək qiymət verirdilər. Məsələn, ABŞ-ın, İranın, Türkiyənin, Gürcüstanın, Fransanın, Böyük-Britaniyanın, Pakistanın və s. Ölkələrin rəhbərləri həmişə Heydər Əliyevin Azərbaycanın siyasi müstəqilliyinə tam şəkildə nail olması istiqamətindəki fəaliyyətini və bununla bərabər SSRİ-nin çökdürülməsi, kommunist rejiminin ləğv edilməsi istiqamətindəki məqsədyönlü siyasətini dəstəkləyirdilər. Bu da sözün əsl mənasında Heydər Əliyev fəaliyyətinin Naxçıvan dövründə onun siyasətinin dünyəvi xarakter daşımasına gətirib çıxarmaya bilməzdi.

Əbədiyaşar müdrik rəhbərimiz Heydər Əliyev müasir Azərbaycan dövlətinin iqtisadi-sosial, elmi-mədəni əsaslarını sovet Azərbaycanına rəhbərlik edərkən 1970-1980-ci illərdə qəsəbə və kəndlərdə qurub yaratmışdır və bu baza üzərində müstəqil dövlətimizin siyasi, elmi, iqtisadi əsaslarını isə Naxçıvandan qurmağa başladı. Yəni 1990-1993-cü illərdə Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxdı, kommunist partiyasından imtina etdi. Naxçıvanın adından sovet sosialist sözləri çıxarıldı. Ali Sovet Milli Məclis elan edildi. Üçrəngli bayrağımız müstəqil dövlətimizin dövlət bayrağı elan olundu. Sovet ordu birləşmələri çıxarılıb, milli ordu yaradıldı. Naxçıvanın müdafiəsi milli orduya həvalə edildi. Dünya Azərbaycanlılarının həmrəyliyi günü elan olundu.

**Ulu öndərin şah əsəri olan müstəqil, demokratik Azərbaycan Respublikası bu gün də Heydər Əliyev siyasətinin davamı olaraq prezident İlham Əliyevin uğurlu, nəqsədyönlü, düşünülmüş daxili və xarici siyasəti nəticəsində inkişaf edir, dünyanın nəzər diqqətini özünə cəlb edir.**



Dəmir QURBANLI